# Qazax aşıq mühitinə yeni baxış

Sənətşünas Tansu Kamalın "Qazax aşıq mühiti: Ənənə və müasirlik" adlı monoqrafiyası nəşr olunub. Monoqrafiyanın əsasını müəllifin magistr dissertasiyası təşkil edir. Araşdırmada Qazax aşıq mühitinin və ifaçılıq ənənəsinin tarixi obrazı yaradılır, aşıqların repertuarında geniş yer alan bir çox havaların strukturu, məqam-intonasiya melopoetik xüsusiyyətləri təhlilə cəlb edilir.




Sənətşünaslıq üzrə elmlər doktoru, professor Ülkər Əliyevanın elmi redaktorluğu, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədlinin rəyi ilə işıq üzü görən monoqrafiyada Azərbaycan aşıq ənənələrinin təşəkkülündə və inkişafında Qazax aşıq mühitinin danılmaz yeri haqqında sayğılarla və xüsusi peşəkarlıqla söz açılır. Qeyd olunur ki, xüsusilə, İncə dərəsində yaşayan sənətkarların havacat üslubunda özünəməxsus, təsiredici məqamlar var. "Qazax aşıq mühiti böyük şairimiz S.Vurğunun yaradıcılığına xüsusi həssaslığı ilə seçilir..."

Monoqrafiyada Aşıq Avdı Qaymaqlının yaratdığı "İncəgülü" saz havası ilk dəfə etnomusiqişünaslıq səviyyəsində təhlil edilir, bu havanın əsaslandığı saz kökü, poetik mətn, melopoetik struktur və s. haqqında sistemli məlumat verilir.

Vurğulanır ki, Qazax aşıq yaradıcılığı əsasən, iki forma və istiqamətdə mövcuddur: instrumental saz ifaçılığı və vokal ifaçılığı. Bu iki forma və istiqamətin mükəmməl şəkildə inkişaf etdirilməsində aşıq Ədalət Nəsibovun, aşıq Cəlalın, Avdı Musayevin, Şaiq İncəlinin, Qərib İncəlinin, İlham Aslanbəylinin, Şəmistan Dərgahquliyevin və başqalarının xüsusi rolu var.

*Sərvaz*

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 4 iyun.- S. 28.**